# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

www. Diplomata-kurdi.com

№ 14 (213) 29 Aprel, Nîsan - 5 May, Gûlan, sal 2013
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

İlham Əliyev akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir


Səh. 13

## Serokê Kurdistanê pêşwaziya Beşîkçî kir



## Xocalı soyqırımı Kürdüstanın Ərbil şəhərində keçirilən konfranslarda qaldırılıb

Tahir Süleyman: *"Ərbil türkmənləri Azərbaycandan fərqli olaraq, 50-dən artıq ölkənin, eləcə də Ermənistanın on illərdir İraqda səfirliyi və Ərbildə konsulluqları fəaliyyət göstərir", görəsən bizim doğma Azərbaycanın səfirliyi niyə yoxdur deyə soruşurlar?*

(davamı səh. 6-da)

## Azərbaycan Respublikası Prezidenti, zati-aliləri İlham Əliyev cənablarına "Diplomat" qəzetinin idarə heyəti adından MÜRACİƏT

Səh. 3


Səh. 7

Sabiq türkmən naziri Cövdət Nəccar Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etdi


Səh.11

Serokwezîr Nêçîrvan Barzanî sibê diçe Bexdayê

## В Швеции прошла церемония открытия представительства КРГ

Səh. 14

## Pêşmergeyan derdora Kerkûkê girtin

Səh. 12

## MÎT şandeya KCK bi balafira taybet ji Qendîlê biriye Oslo

Səh. 11


Səh. 4

Tanınmış türkmən şairi, sabiq millət vəkili "Yeni Müsavat"a danışdı


Səh. 8

Türkmən deputatın açıqlamaları


Səh. 9

Əməkdaşımız Bərzaninin kəndindən yazır


Səh. 10

## Öcalan Nobel'e adaydır

# İlham Əliyev akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir

Dövlətimizin başçısı yubiley mərasimində nitq söylədi.

**-Hörmətli xanımlar və cənablar.**

**Hörmətli qonaqlar.**

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün yubiley tədbirində iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmişsiniz.

Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi. Onun 90 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün mən Prezident kimi müvafiq Sərəncam imzalamışdım. Sərəncam əsasında müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərin çox böyük mənası var idi. Çünki bu tədbirlərdə, elmi simpoziumlarda oftalmologiya elmində gedən proseslər bir daha təhlil edilmiş, çox dəyərli fikirlər səslənmiş və bu tədbirlər oftalmologiya sənətinə, oftalmologiya elminə yeni bir töhfə olmuşdur.

Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir.

Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir.

Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir, eyni zamanda, Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüşdür.

Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o, həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə bağlı da fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır.

Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi.

Bir daha demək istəyirəm ki, heç vaxt heç bir sözü, addımı ilə göstərmirdi ki, onun cəmiyyətdə hansısa xüsusi statusu vardır və bu da təbiidir, əslində belə də olmalıdır. Ancaq biz bilirik ki, bir çox hallarda belə deyil və müəyyən statusa malik olan insanlar, yaxud da ki, onların yaxınları özləri üçün xüsusi imtiyazlar tələb edirlər. Zərifə xanımın bu sahədəki hərəkətləri, davranışı da nümunə olmalıdır. Zərifə xanım çox yüksək mədəniyyətə malik olan, çox istedadlı, bilikli insan idi. Nəinki öz peşəsində, eyni zamanda, hərtərəfli istedadlı bir insan idi və bəziləri üçün o, necə deyərlər, son ümid yeri, ümid ünvanı idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini tapırdı. Yəni, daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı.

Əlbəttə ki, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Eyni zamanda, Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

Bununla bərabər, çox istedadlı insan idi, hərtərəfli istedadlı, musiqini çox sevirdi, istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə,



ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, 1970-ci illərdə onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxırdıq.

Bu teatrı da çox sevirdi. O vaxt bu teatrın adı Musiqili Komediya Teatrı idi və demək olar ki, hər həftə bu teatra gəlirdik. Elə bir tamaşa yox idi ki, biz onu görməyək. Elə tamaşalar da var idi ki, o tamaşaları bir neçə dəfə seyr edirdik. Bəlkə də bu gün Zərifə xanımın yubileyinin məhz bu teatrda, yenidən əsaslı təmirdən çıxmış teatrda keçirilməsi də rəmzi xarakter daşıyır.

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir. Bu da təbiidir. Hər bir insan doğmalarını öz qəlbində yaşadır. Zərifə xanımın adı əbədiləşdirilib, onun adına küçə vardır. Onun yaşadığı küçə onun adını daşıyır. Onun böyük töhfəsi olan Oftalmologiya Mərkəzi onun adını daşıyır və Mərkəzlə üzbəüz onun abidəsi ucaldılıbdır. Əlbəttə ki, onun xatirəsi, onun obrazı onu tanıyanların qəlbində yaşayır. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi.

Ancaq həyat belədir ki, heç kim deyə bilməz nə vaxt nə baş verəcəkdir.

Biz bu gün yubiley tədbirlərini keçirməklə bərabər, eyni zamanda, ölkəmizdə səhiyyə sahəsində aparılan işlərə bir daha nəzər salırıq. Xüsusilə nəzərə almalıyıq ki, bu gün bizim qonaqlarımızın arasında görkəmli alimlər, həkimlər iştirak edirlər. Son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi üçün böyük işlər görülmüşdür, islahatlar aparılmışdır.

Səhiyyənin maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir.

Həm Bakıda, həm bütün bölgələrdə indi lazımi tibb xidməti almaq üçün bütün şərait vardır. Bakıda bizim demək olar ki, bütün əsas tibb ocaqları ya yenidən tikilmiş, ya da orada təmir-bərpa işləri aparılmışdır.

Oftalmologiya Mərkəzi yenidən tikilmişdir və dünya miqyaslı bir mərkəzdir. Onkologiya Mərkəzinin yeni korpusları tikilmişdir. Uroloji xəstəxana yenidən qurulmuşdur - neyrocərrahiyyə, cərrahiyyə mərkəzləri, Perinatal Mərkəz, Talassemiya Mərkəzi, keçmiş "Semaşko" xəstəxanası, indi kliniki xəstəxana adlandırılır. Mərkəzi Kliniki Xəstəxana yenidən bərpa edilmişdir. Bu xəstəxananın yeni böyük korpusu tikilməkdədir. Uşaq xəstəxanaları əsaslı şəkildə təmir olunubdur. Yəni, Bakıda son illər ərzində görülmüş işlər səhiyyənin maddi-texniki bazasını böyük dərəcədə gücləndirmişdir. Hazırda tikilməkdə olan Bakı Sağlamlıq Mərkəzi bir neçə böyük xəstəxananı birləşdirəcəkdir. Biz ilin sonuna qədər Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edəcəyik.

Eyni zamanda, bölgələrdə səhiyyə müəssisələrinin yaradılması, tikilməsi prosesi gedir. Hər bir şəhərdə ya diaqnostika mərkəzi, ya mərkəzi rayon xəstəxanası tikilib, yaxud da ki, təmir edilibdir. Hazırda yeddi şəhərdə təmir işləri gedir. Qarşıya vəzifə qoyulmuşdur ki, biz bir-iki il ərzində Azərbaycanda hər bir yaşayış məntəqəsində, hər bir şəhərdə, hər bir rayonda ən yüksək tibbi xidmətə nail olmalıyıq. Azərbaycana ən müasir avadanlıq gətirilir. Yəni, dövlət öz tərəfindən lazımi işləri görür. Təkcə onu demək kifayətdir ki, son on il ərzində səhiyyə xərclərinə ayrılan vəsait 11 dəfə artmışdır. Həkimlərin maaşı 6 dəfə artmışdır. Halbuki bu gün də o maaşların səviyyəsi bizi qane edə bilməz. Bu məsələlərin gələcəkdə daha da səmərəli şəkildə həlli üçün indi hökumət işləyir. Yəni, maaşlar daim qaldırılacaqdır. Ancaq biz bu dinamikanı görürük. Çox müsbət dinamikadır. Azərbaycanın ümumi inkişafına uyğun olan dinamikadır. Eyni zamanda, biz burada dövlət siyasətinin təzahürlərini də əyani şəkildə görürük.

Çünki bizim siyasətimizin mərkəzində, - bunu mən dəfələrlə demişəm, - insan amili, Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Gənc nəsil sağlam böyüməlidir. Bunu etmək üçün ilk növbədə yüksək səviyyəli tibbi xidmət olmalıdır.

Biz indi iqtisadi cəhətdən güclənmişik. Yenə də deyirəm, siyasətimizin əsasında, mərkəzində Azərbaycan vətəndaşı dayandığı üçün biz maliyyə resursları cəlb etmişik. Ancaq təkcə maliyyə resurslarının cəlb edilməsi ilə iş bitmir. Eyni zamanda, peşəkarlıq artmalıdır. Kadrların hazırlanması sahəsində daha da böyük işlər görülməlidir. Hazırda bu işlər inkişafdadır. Azərbaycan həkimlərinin bir qrupu xaricdə təlim keçir. Xaricdən gələn görkəmli mütəxəssislər, alimlər Azərbaycanda fəaliyyət göstərirlər. Yəni, biz gələcəkdə bu işlərə daha da çox vəsait ayıracağıq ki, peşəkarlıq artsın, Azərbaycanda səhiyyənin nəinki maddi-texniki bazası, eyni zamanda, səviyyəsi, ümumiyyətlə, dünya standartlarına cavab versin.

Hesab edirəm ki, buna nail olmaq üçün bizim bütün imkanlarımız vardır. Yenə də deyirəm, son illər ərzində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşmüşdür. Statistik göstəricilər də, onların dinamikası da çox müsbətdir. Həkimlər yaxşı bilir, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda körpə ölümü yüksək idi, Sovet İttifaqı dövründə digər respublikalarla müqayisədə həmişə yüksək idi. İndi uşaq ölümü kəskin şəkildə azalmışdır. İnsanların ömrünün uzunluğu artır, bu da hər bir ölkənin ümumi inkişafını şərtləndirən bir amildir. Çox sevindirici haldır ki, bu proses də müsbət istiqamətdə gedir. Azərbaycanda əhali artır. Son on il ərzində Azərbaycanda əhalinin sayı bir milyondan çox artmışdır. Azərbaycanda əhalinin artım templəri Avropa qitəsində ən yüksəkdir. Əlbəttə, bütün bu amillər tələb edir ki, səhiyyə sahəsində daha da ciddi islahatlar aparılmalıdır. Həm struktur islahatları aparılmalı, eyni zamanda, ilk növbədə peşəkarlıq artmalıdır. Əminəm ki, əgər biz bundan sonra da bu templərlə inkişaf etsək, bu məsələlər də öz həllini tapacaqdır. Azərbaycanda bu sahədə görülən işləri beynəlxalq təşkilatlar da qiymətləndirir. Bir müddət bundan əvvəl Bakıda Dünya Səhiyyə Təşkilatı Avropa Komitəsinin konfransı keçirilmişdir və orada qeyd edilmişdir ki, Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsində çox böyük inkişaf və tərəqqi vardır.

Yəni bu, reallıqdır. Ancaq o da reallıqdır ki, hələ bəzi hallarda tibbi xidmət lazımi səviyyədə deyildir. Bəzi həkimlərin peşəkarlığı bizi qane edə bilməz və elə tibb müəssisələri var ki, orada əsaslı təmirə ehtiyac vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda bütün bu məsələlər ardıcıllıqla və yüksək templə öz həllini tapır.

Bu məsələlərin həlli, bir daha demək istəyirəm ki, dövlət siyasətimizin əlamətidir. Sosial məsələlərin həlli bizim üçün prioritetdir və həmişə prioritet olaraq qalacaqdır.

Bu gözəl yubiley bir daha imkan verir ki, biz bu məsələlərə toxunaq, fikirlərimizi bildirək və böyük ümidlərlə gələcəyə baxaq. Çünki gələcəkdə Azərbaycan hər bir istiqamət üzrə inkişaf etmiş ölkəyə çevrilməlidir.

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır. Sağ olun.

X X X

Sonra görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın 90 illik yubileyi münasibətilə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.

X X X

Daha sonra Prezident İlham Əliyev akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinin əks olunduğu fotosərgiyə baxdı.

# Azərbaycan Respublikası Prezidentinin 12 noyabr 2010-cu li tarixli Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqda Sərəncamı niyə yerinə yetirilmir?

Biz bu müraciəti, 2011-ci ilin fevral ayında ölkə Prezidentinə ünvanlamışdıq və qeyd etmişdik ki, Ermənistanın Bağdadda səfirliyi, Ərbildə konsulluğu fəaliyyət göstərir, nə səbəbə görə Azərbaycanın Bağdadda səfirliyi olmasın?

Mətbuatdan aydın olur ki, ermənilər Bağdadda erməni kilisəsi tikir və Ərbildə erməni-dili mərkəzi açır.

Bu xəbər bizə çox ağır gəldi və biz ikinci dəfə 2011-ci ilin noyabr ayında bu müraciəti hörmətli Prezidentimizə ünvanlamağı özümüzə borc bilmişdik.

Bu ilki İraq Respublikasının Kürdüstan bölgəsinə səfərimizdə özlərini azərbaycanlı sayan türkmən soydaşlarımız, kürd qardaşlarımız, ərəb dindaşlarımız, İraqda Azərbaycan səfirliyinin olmamasından dərin narahatçılıqlarını bildirərək qeyd etdilər ki, biz Azərbaycana gəlib ölkənin dərd-səri ilə tanış olmaq, Azərbaycanın inkişafını görmək, tarixi yerləri gəzib tanış olmaq və tarixi həqiqətlər haqqında İraqda yaşayan soydaşlarımıza və digər etnik qruplara geniş məlumat verməkdir. Bununla bağlı özümüzə borc bildik ki, hörmətli prezidentimiz İlham Əliyev cənablarına ünvanladığımız müraciəti təkrar dərc edək. Bu həm də, İraqda yaşayan soydaşlarımızın arzusudur.

## Azərbaycan Respublikası Prezidenti, zati-aliləri İlham Əliyev cənablarına "Diplomat" qəzetinin idarə heyəti adından

## M Ü R A C İ Ə T

**Çox hörmətli cənab Prezident!**

Artıq bütün dünya ölkələrinə məlumdur ki, Azərbaycan Sizin rəhbərliyiniz altında hər birimizin qürur duyduğu iqtisadi-siyasi uğurlara imza atmaqdadır. Azərbaycanın Böyük oğlu, xalqımızın xilaskarı, Ulu Öndər Heydər Əliyevin zərgər dəqiqliyi ilə qurduğu dövlətçilik prinsipləri, Sizin uzaqgörən siyasətinizdən güc alaraq daha da möhkəmlənməkdədir. Artıq son illər Sizin rəhbərliyiniz altında aparılan uğurlu siyasət nəticəsində, dünyanı erməni yalanlarından xəbərdar etməkdə, onilliklər boyu bizi məngənədə saxlayan informasiya blokadasını yarmaqdayıq. Bilirik ki, hələ qarşıda görüləsi xeyli önəmli işlər var və nəzərə almalıyıq ki, mövcud dünya hələ də ikili standartlardan əziyyət çəkir, bu azmış kimi xristian təəssübkeşliyi müsəlman dünyasına qarşı ədalətsizlik dalğasını daha da gücləndirməkdədir. Ancaq həqiqətin üzə çıxması uğrundakı mübarizə yolu nə qədər çətin olsa da, bir o qədər məsuliyyətli və şərəfli olduğundan hər birimiz bir informasiya təbliğatçısı funksiyasını daşıyaraq dünyanı fitnəkar erməni yalanlarına uymamağa, bəşəriyyətin tərəqqipərvər kəsimini qəflət yuxusundan ayıltmağa tələsməliyik. Sevindirici haldır ki, artıq Sizin uzaq görən siyasətiniz sayəsində sərhədlərimizin o tayında, xüsusilə də Avropa və Amerikada güclü diaspor təşkilatlarımız, lobbiçilik strukturlarımız formalaşmaqdadır və bu institutlar Azərbaycan həqiqətlərini dünya miqyasına çıxarmaqda, mədəniyyətimizi, adət-ənənəmizi, milli özünəməxsusluğumuzu tanıtmaqda xeyli önəmli işlər görməyə müvəffəq olublar.

**Cənab Prezident!**

Apardığınız dünyəvi siyasət nəticəsində nə qədər dost qazanmış olsaq da, düşmənlərimiz, rəqiblərimiz, bir sözlə, dövlətimizin güclənməsini istəməyən bədnam qüvvələr də yox deyil. Məhz buna görə də xalqımızın, dövlətimizin siyasətinin təbliği üçün hər bir fürsətdən yararlanmalıyıq. Məxsusi olaraq müsəlman dünyasıyla geniş iş aparılmalı, din qardaşlarımızın köməyindən bəhrələnməliyik. Hesab edirik ki, İraq Federativ Respublikası və Kürdüstan bölgəsi də bu işdə bizə umduğumuz köməyi edə bilər. Çünki İraq Federativ Respublikasında iki milyon yarım, Kürdüstan bölgəsində yüz iyirmi min türkman soydaşımız, altı milyona qədər kürd qardaşımız, on milyonlarla ərəb dindaşlarımız yaşayır. Biz əsrlər boyu qəhrəman kürd xalqı ilə Kərkükdə, Ərbildə, Süleymaniyədə, Altun körpüdə, Zəngəzurda, Dərələyəzdə, Qərbi Azərbaycanda, Qarabağda, Gəncədə, Bakıda birgə yaşamışıq, işğalçılara qarşı səngərlərdə çiyin-çiyinə vuruşmuşuq, xeyrimiz də bir olub, şərimiz də. Biz bu iki qardaş xalqların birlikdə gələcəkdə də bütün çətinlikləri dəf etmək gücündə olduğu qənaətindəyik.

Ümid edirik ki, tezliklə əlaqələrimizin genişlənməsi, informasiya mübadilələrimizin intensivləşməsi, ortaq dəyərlərimizin paylaşması istiqamətində zəruri addımların atılmasına göstəriş verəcəksiniz. Biz tam əminik ki, hər üç qardaş xalqlar arasında siyasi-iqtisadi, mədəni əlaqələrin qurulması ölkəmizin ərazi bütövlüyünə edilən təcavüzün gerçək mahiyyətinin dünya miqyasına daha bir cəbhə vasitəsiylə çıxarılmasını təmin edə bilər. Kürdüstan bölgəsinin yetkililəri Azərbaycan tərəfinin rəsmi qərarını səbrsizliklə gözləyir və onlar istər Ərbildə, istərsə də Bakıda, qarşılıqlı olaraq rəsmi nümayəndəliklərin açılacağı günün çox da uzaqda olmadığına inanırlar. Artıq qardaş Türkiyə bu əlaqələrin qurulmasına başlayıb və Bağdadda Səlahiyyətli Səfirliyini və Kürdüstan bölgəsinin Ərbil şəhərində özünün Səlahiyyətli Konsulluğunu açıb.

-Diqqətinizə çatdırmaq istəyirik ki, internetdən aldığımız məlumata əsasən, iki ildən artıqdır işğalçı Ermənistan Respublikası Bağdadda özlərinin Səlahiyyətli Səfirliyini açıb və Kürdüstan bölgəsində də Konsulluğunun açılmasını planlaşdırırlar.

Güman edirik ki, Azərbaycan Respublikası da belə bir addım atacaq, qardaş Türkiyə və İraq-Kürdüstan bölgəsi ilə birlikdə ölkəmizin siyasi maraqlarını Yaxın Şərq ölkələrində təşviq və təbliğ edəcəklər və jurnalistlərimiz, siyasi xadimlərimiz Bağdada, Kürdüstan bölgəsinə gedərək, Azərbaycan həqiqətlərini yeni bir cəbhədən dünya ictimaiyyətinə çatdıracaqlar.

**Əvvəlcədən Sizə minnətdarlığımızı bildiririk!**

***Hörmətlə: "Diplomat" qəzetinin idarə heyəti adından, qəzetin təsisçi və baş redaktoru Tahir Süleyman oğlu Əliyev.***

AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİ

№ 4/21-170/21/11
"07" 03 2011

"Diplomat" qəzetinin təsisçisi
və baş redaktoru
cənab Tahir Süleyman oğlu
Əliyevə

Hörmətli Tahir müəllim,

Sizin İraq Respublikasının Ərbil bölgəsində Azərbaycanın konsulluğunun açılması məsələsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına ünvanladığınız müraciətə Xarici İşlər nazirliyində baxılmışdır.

Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 12 noyabr 2010-cu il tarixində Azərbaycan Respublikasının İraq Respublikasında (Bağdad şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzalanmışdır.

İraqın Ərbil şəhərində Azərbaycanın konsulluğunun açılması ilə bağlı müraciətinizə cavab olaraq bildirmək istəyirik ki, İraqda daxili, hərbi-siyasi vəziyyətin gərgin və mürəkkəb olduğunu nəzərə alaraq, İraqda vəziyyətin nisbətən sabitləşməsi və orada Azərbaycan Respublikasının səfirliyinin fəaliyyətə başlamasından sonra digər regionlarda konsulluğun açılması məsələsinə münasibətlərin və maraqlarımızın həcminə uyğun olaraq baxıla bilər.

Hörmətlə,

İkinci (Şərq) Ərazi
İdarəsinin rəisi

N. Hüseynov

## Xarici İşlər Nazirliyinin İkinci (Şərq) Ərazi İdarəsinin rəisi hörmətli N. Hüseynov cənablarına

Cənab Hüseynov, Hörmətli ölkə Prezidenti İlham Əliyev cənablarına ünvanladığımız müraciətin cavabını aldıq. Qeyd etdiyimiz kimi, on illərdir qardaş Türkiyənin, ABŞ-ın, Avropa dövlətlərinin, sonda da mənfur qonşularımız, ermənilərin Bağdadda səfirliklərinin fəaliyyəti haqqında müraciətdə məlumat vermişdik. Çox təəssüflər olsun ki, 50-dən artıq ölkənin səfirliklərinin fəaliyyət göstərdiyi bir ölkədə Azərbaycanin səfirliyi yoxdur.

Hansı ki, dediyiniz kimi, Cənab Prezident 12 noyabr 2010-cu ildə bu haqqda Sərəncam imzalamışdır. Görəsən, 12 noyabr 2010-cu ildə verilən Sərəncam nə üçün indiyə qədər yerinə yetirilməyib.

Bəlkə, Bağdada getmək üçün qorxmaz səfirlərin tenderini elan edəsiniz? Görünür, ya bizim qanımız Bağdadda çalışan ermənilərin qanından qırmızıdır, ya da, orada çalışanların qanı bizim qanımızdan...

**Mən Tahir Süleyman, bir neçə dəfə Ulu Öndərimiz Heydər Əliyev cənabları ilə görüşsəm də, heç vaxt, heç nə ummamışam. Lakin Azərbaycanımızın mənafeyini müdafiə edəcək hər hansı qorxulu bir iş olsa mən orada çalışmağa hazıram.**

Bizə elə gəlir ki, hörmətli Prezidentimiz İlham Əliyev cənablarının Bağdadda səfirliyin açılmasına verdiyi Sərəncama qeyri-şərtsiz, vaxtında əməl olunmalı idi.

Gec də olsa, Prezidentin sərəncamı yerinə yetirilməlidir!

Lakin Prezidentə verdiyimiz müraciətin vaxtından və sizin bizə verdiyiniz cavabdan 2 il 2 ay keçməsinə baxmayaraq, hələ də, Prezidentin Sərəncamı icra olunmamışdır.

Nə üçün?

***Hörmətlə: "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman.***

# "Diplomat" qəzetinin baş redaktorunun təşəbbüsü ilə 5 nəfərlik heyət Şimali İraqın Kürdüstan bölgəsinə gedir

Ərbilin Səlahəttin Universitetində konfrans təşkil olunacaq; Xocalı soyqırımı ilə bağlı sərgi keçiriləcək.

Aprelin 12-də Azərbaycandan 5 nəfərlik nümayəndə heyəti Şimali İraqa səfər edəcək. Bakıda nəşr olunan "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman Ş.İraqın Səlahəttin Universiteti rəhbərliyinə müraciət edib. Müraciətə müsbət cavab verilib və 5 nəfərlik nümayəndə paytaxt Ərbil şəhərində təşkil olunan konfransda iştirak edəcək.

Onların arasında "Yeni Müsavat" qəzetinin əməkdaşı Emil Salamoğlu da var. Reportyorumuz həm konfransdan, həm də Ş.İraqdan eksklüziv olaraq reportajlar, müsahibələr təqdim edəcək. T.Süleyman qəzetimizə açıqlamasında bildirdi ki, konfransda kürd, türkmən və müxtəlif xalqların iştirakı ilə görüşlər keçiriləcək:

"Konfransın mövzusu "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" barədə olacaq. Eyni zamanda Xocalı soyqırımı ilə bağlı tədbir təşkil olunacaq və ermənilərin Azərbaycanımızın başına gətirdiyi müsibətlərdən, dəhşətli cinayətlərdən söz açılacaq.



Xocalı soyqırımı ilə bağlı mətbuat konfransı keçiriləcək və orada yaşayan insanlara Xocalı faciəsi barədə məlumat verəcəyik, ermənilərin törətdiyi cinayətlər haqda faktlar təqdim edəcəyik. Həmçinin Xocalı faciəsi qurbanlarının şəkilləri sərgidə nümayiş olunacaq". T.Süleyman qeyd etdi ki, bu ölkədə 15 min erməni yaşayır. "Bağdadda səfirlikləri, Ərbildə konsulluqları var. 2 milyondan çox türkmən var. Amma nə səfiri var, nə konsulluğu. 2010-cu ildə cənab prezident İlham Əliyevin sərəncamı var idi ki, Bağdadda rəsmi səfirliyimiz açılsın. Amma Xarici İşlər Nazirliyindən mənə bildirdilər ki, səfirliyin açılmaması Bağdadda sabitliyin olmaması ilə əlaqəlidir. Amma ermənilərin var. Gürcüstandan Ərbilə təyyarə reysi var. Bizim niyə olmasın?" - deyə T.Süleyman vurğuladı. (Aşağıdakı şəkildə: nümayəndə heyəti Naxçıvan aeroportunda olarkən).

**Emil SALAMOĞLU, musavat.com**

# Tanınmış türkmən şairi, sabiq millət vəkili "Yeni Müsavat"a danışdı

## Əsəd Ərbil: *"Vəziyyətimiz yaxşı deyil, Mərkəzi İraq bizə Kürdüstan hökuməti qədər hüquq və azadlıqlar vermir"*

***"Səddam bizə çox zülm elədi, 70 ziyalımızı və onların qohum-əqrəbasını elə yoldaca tutdurub asdırdı..."***

Azərbaycandan Şimali İraqın Kürdüstan muxtariyyətinin paytaxtı Ərbil şəhərinə gedən 5 nəfərlik nümayəndə heyəti artıq bu ölkəyə çatıb. Məlum olduğu kimi, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə 5 nəfərlik nümayəndə heyəti Səlaheddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunub. Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var.

İraq Kürdüstanında ilk müsahibimiz Türkmən Yazarlar Birliyinin sədri, sabiq millət vəkili Əsəd Ərbil oldu. Müsahibimiz İraq türkmənlərinin problemlərindən, Səddam Hüseynin hakimiyyəti dövründə onlara qarşı yürüdülən qeyri-insani siyasətdən və indiki Bərzani hökumətinin türkmənlərə münasibətindən danışdı. Əvvəlcə qeyd etdi ki, "Barış" dərgisinin baş yazarıdır. Ancaq iki ildir bu dərginin nəşri maliyyə çətinliyindən dayandırılıb.

Dərgi Mədəniyyət Nazirliyinə aiddir. İraq Kürdüstanı ilə mərkəzi hökumət arasında maliyyə problemi yaranıb deyə dərginin nəşrinə vəsait ayrılması dayandırılıb. Bu dərgidə türkmən, ərəb, kürd və Anadolu türkcəsində yazılar dərc olunurdu. Bu 4 il ərzində 57 sayı işıq üzü görüb.

***- Əsəd bəy, türkmənlər Səddam Hüseyn dövrünü necə xatırlayır?***

- Səddamın adı gələndə insanlığın ağlına sığmayan qanlı faciələr yada düşür. Kimyəvi bombalarla minlərlə insanın kütləvi ölümündənmi, yoxsa kütləvi qırğın adı verilən Ənfal faciələrindənmi danışım? Səddam kürdləri, şiə ərəbləri, türkmənləri buldozerlərlə çalalar qazdıraraq diri-diri üstlərini torpaqlatdırırdı. Səddam bu xalqlara qarşı zülmündə hədləri aşırdı. 1992-ci ildə Səddamın türkmənlərə qarşı zülmünü qardaş ölkəyə çatdırmaq üçün bir qrup ziyalımız gizli Türkiyəyə gedirlər. Səddamın onların başına açdığı fəlakətlərin qarşısının alınması üçün kömək istəyirlər. Lakin Türkiyə bu olayların İraqın daxili işi olduğunu söyləyir. Aydın-



larımız naümid geri qayıdır. Ziyalılarımız Altunkörpüyə çatmamış onların Türkiyə səfəri Səddama çatdırılır. Səddam 70 ziyalımızı və onların qohum-əqrəbasını yolda tutdurur, Altunkörpü ilə Dilafər arasında dar ağacları düzəltdirərək asdırır. Əmr verir ki, 7 gün heç kim onları dəfn edə bilməz. Cənazələr şişib partlamışdılar. Bir türkmənin evi təsadüfən uçsaydı, evini təmir etdirməyə haqqı yox idi. Ya o ərazini bir ərəbə satmalı idi, ya da uçuq vəziyyətdə yaşamalı idi.

***- Səddam dönəmi ilə müqayisədə türkmənlərin vəziyyətində indi nə dəyişib?***

- 2000-ci ilədək parlamentdə türkmən təmsilçisi yox idi. 2005-də seçkilər oldu və bizdən 5 nəfər seçildi. Bəzi qanunları dəyişərək, təcrübədən istifadə edib problemləri həll etməyə başladıq. Səddam Hüseynin dövründə türkmənlər assimilyasiyaya məruz qalmışdı. Türkmənlərdən kimsə ölkədən qaçsaydı, Səddam onun ailəsini edam etdirirdi. 1991-ci ildə indiki Kürdüstan bölgəsi ayağa qalxdı. Ondan sonra bir az nəfəs ala bildik. İndi İraq Milli Türkmən Partiyası, Türkmən Demokrat Partiyası, Türkmən Reform Hərəkatı var. Sadəcə, ən önəmli problemimiz birliyimizin olmamasıdır.

Bir olsaq, istəklərimizi reallaşdıra bilərik. Səddamın vaxtında türkmən adını qoya bilməzdik. İndi İraq Kürdüstanı konstitusiyasında türkmənlərin milli mənsubiyyəti, türkmən adlarının verilməsi təsdiqini tapıb. Kürdlərdən sonra ikinci ən çoxsaylı millət türkmənlərin olduğunu Ana Yasada rəsmiləşdirmişik.

***- Əsəd bəy, bəs İraqda türkmənlərin siyasi gələcəyini necə görürsünüz? Muxtariyyət olmalıdır, yoxsa Kürdüstan muxtariyyəti tərkibində qalmalıdır?***

- Əvvəla, onu deyim ki, indi 5 millət vəkilimiz var. Kərkükü də əlavə etsək, türkmən millət vəkilləri 15 nəfərə çatır. Sənaye və ticarət naziri Sinan Çələbi türkməndir. Mərkəzi İraq bizə Kürdüstan hökuməti qədər hüquq və azadlıqlar vermir. Səbəb Amerika və İngiltərədir. Çünki onlar heç zamana türkü sevməzlər. Ümumilikdə türkmənlərin vəziyyəti yaxşı deyil. Bizə vədlər verildi, amma kağız üzərində qaldı. İstəyirik ki, nazirliklər artırılsın, millət vəkillərimiz çoxalsın. Ən vacib məsələ - Kərkükə əhəmiyyət verilsin. Orada neft var. Kərkükün iqtisadi inkişafının yaxşılaşdırılması üçün ora sərmayə qoyulsun ki, xalqın rifahı yaxşılaşsın. Tusxurmatu, Təzəxurmatu, Mendeli, Dilafər kimi türkmən bölgələri baxımsız qalıb. Harda türkmən bölgəsi varsa, orada iqtisadi inkişaf yoxdur. Bu bölgələr Mərkəzi İraqın nəzarətindədir. Biz türkmənlərin muxtariyyətə böyük ehtiyacımız var. Amma heç bir halda İraqın dövlət sərhədlərinin pozulmasını istəmirik və muxtariyyəti ölkənin ərazi bütövlüyü çərçivəsində arzulayırıq. Türkmənlərin niyə icra hakimiyyəti olmasın? Universitetdə rektoru olmasın? Doğrudur, Səlaheddin Universitetində türkcə şöbə açmışıq. Türkmən məktəbləri var. Habelə 4 uşaq bağçası var. Kimsə sahibkarlara, ticarətçilərə müdaxilə etmir. Amma ürək daha çox şey istər.

Onu da deyim ki, türkmənlərin əksəriyyəti Mərkəzi İraqda yaşasa da onların nə məktəbi var, nə də siyasi partiyası. Bu bölgədə 120 türkmən məktəbimiz, 8 siyasi partiyamız, bir neçə radio qovşağımız, türkmən telekanalımız, mədəniyyət mərkəzlərimiz var.

***- Millət vəkili olduğunuz zaman hansı məsələlərin həllinə nail oldunuz?***

- Ən əsası terrorla mübarizə qanunudur. Görürdün bir qrup şəxs təxribat edib haradasa partlayış törədir. Biz ölüm hökmünü bərpa etdik. Kürdüstan bölgəsində terrorçuluqda ittiham olunan şəxslər məhkəmə hökmündən sonra edam olunur. Əvvəllər isə terrorçulara ən ağır cəza 25 illik həbs idi. Məsələn, "Şixzanə" terror dəstəsi var idi. Onlar insanları öldürür, sonra ətini qonşulara yedizdirirdilər. 2007-ci ildə ələ keçirildilər və dəstədə olan 15 nəfər asılaraq edam olundu. Kərkük, Bağdad və Mosulla müqayisədə Ərbil çox sabit şəhərdir. Burada terror yoxdur, rahat yaşayırıq. Kərkükdə evindən çıxan fatihə oxuyur ki, bəlkə geri dönmədi.

***- Son olaraq Azərbaycana deyəcək sözünüz varmı?***

- Dədə-babalarımız bura Azərbaycandan gəlib. Özümüzü azərbaycanlı sayırıq. Bu halda niyə Azərbaycanın bir səfirliyi, konsulluğu açılmır? Azərbaycana gələndə çox çətinliklə viza alırıq. Səfirlik olsa, rahat gedib-gələ bilərik. "Diplomat" qəzetinin baş yazarı Tahir Süleyman mütəmadi Ərbilə gəlir. Kürdlərdən çox bizim problemlərimizlə maraqlanır, istəklərimizi Azərbaycana çatdırır. Şükürlər ki, siz birinci Azərbaycan türkü olaraq bizi ziyarətə gəlmisiniz. Olmazmı idi ki, sizinlə bir neçə qəzetçi də gələydi, istəklərimizi, arzularımızı qələmə alaydılar?!

**Emil SALAMOĞLU, musavat.com**

www.musavat.com

# Sabiq türkmən naziri, İraq Kürdüstan Türkmən Kültür Dərnəyinin başqanı Cövdət Nəccar Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etdi

## İraq Türkmən Dərnəyinin rəhbəri Cövdət Nəccar: "Gözümüz Bakıdadır və ümidimiz odur ki, burada Azərbaycan səfirliyi açılsın"

"Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə Azərbaycandan İraqın Ərbil şəhərinə 5 nəfərlik nümayəndə heyəti gedib. Onlar Səlahəddin Universitetində keçiriləcək "Osmanlı imperiyası dövründə Yaxın Şərqdə ictimai-siyasi vəziyyət" mövzusunda konfransda iştirak etməyə dəvət olunublar. Heyətdə təşkilatçıların dəvətini qəbul edən "Yeni Müsavat"ın əməkdaşı Emil Salamoğlu da var. O, türkmən əsilli keçmiş idman naziri Cövdət Nəccarla görüşüb.

C.Nəccar nazir işlədiyi dövrdə - 2009-cu ildə "Yeni Müsavat"ın redaksiyasına təşrif buyurmuşdu. O vaxtdan sonra müxtəlif vəzifələrdə çalışan C.Nəccar hazırda İraq Türkmən Dərnəyinin rəhbəridir. O bildirdi ki, bu mədəniyyət mərkəzi 1998-ci ildə yaradılıb və məqsədi İraqda yaşayan xalqların qardaşlığına nail olmaqdır. Onun sözlərinə görə, amma bəzi siyasətçilərin ucbatından türk, kürd və ərəb xalqları arasında problem yaradılıb.

C.Nəccar qeyd etdi ki, Səddam Hüseyn dövründə bu mərkəzin qərargahını qapatmağa, terror etməyə çalışıblar, onlara qarşı hücumlar etməyə cəhd göstərilib. Bununla belə,



mərkəz mücadilə verərək varlığını qoruyub saxlaya bilib.

"Səddamın dövründə türkmənlərin başına nələr gətirildiyini bilirsiniz. Təbii haqlarımızı istəyirdik, vəzifələrdə türkmənlərin də təmsil olunmasını arzulayırdıq. Məktəblər, siyasi partiyalar, mədəniyyət mərkəzlərimiz yox idi. Artıq o dövr geridə qaldı. Biz kürdlər və digər xalqlarla birlikdə qardaşlıq içində yaşayırıq. İraq Kürdüstanında Türkiyə dövləti bizə bir dayaq oldu. Ərdoğan Bərzani hökuməti ilə siyasətdə düzgün addımlar atdı və bu baxımdan bizə imkanlar yarandı. Türkmənlər xeyli irəli getdilər. Səddam vaxtı isə heç türkmən milləti deyə bilməzdik.

Pasportda milliyyətini ya kürd, ya da ərəb yazmalı idin. İndi kürdlərdən sonra sayca ikinci millət kimi türkmənlər rəsmən qəbul olunub, bütün İraqda isə üçüncü çoxsaylı millətik. İraq Kürdüstanında 5 millət vəkilimiz var, məktəblərimiz var. Amma problemlərimiz də bitməyib" - deyə müsahibimiz vurğuladı.

Sabiq nazir əlavə etdi ki, hazırda türkmənlər daha çox ticarətlə məşğuldur. C.Nəccar bölgədəki inkişafı Türkiyə və İranla ticarət əlaqələrinin olması ilə əlaqələndirdi: "Arzu edirik ki, Azərbaycanla da bu əlaqələr yaransın. Biz türkmənlər həmişə Azərbaycanı öz vətənimiz hesab etmişik. Çünki Azərbaycandan köçüb gəlmişik. Soyumuz-kökümüz, dilimiz, dinimiz birdir. Bu mənada əlaqələrimizin sıxlaşması, genişlənməsinə




ehtiyac var".

C.Nəccar Azərbaycan prezidenti İlham Əliyevə müraciət edərək İraqda səfirlik açılmasını xahiş etdi: "Biz Azərbaycana getmək üçün çətinlik çəkirik. Viza almaq problemi yaranır. İraq Kürdüstanında 27-28 ölkənin səfirliyi var. Rusiyanın, Türkiyənin səfirlikləri fəaliyyət göstərir. İraqın Azərbaycanda səfiri var, amma Azərbaycanın burada yox. Biz cənab prezident İlham Əliyevdən rica edirik ki, bu məsələyə baxsın. Hörmətli millət vəkili Qənirə Paşayeva da bu məsələni qaldırmışdı. Səfirlik olsa, gedib-gəlmək, ünsiyyət qurmaq imkanlarımız daha çox genişlənə bilər. İş adamlarınız burada gəlib iş qura bilərlər, türkmənlərin problemləri daha çox qabardılar. Əgər Türkiyə, Rusiya kimi ölkələrin burada səfirliyi varsa, Azərbaycanın niyə olmasın? Gözümüz Bakıdadır və ümidimiz odur ki, səfirlik açılsın. Qəzetiniz vasitəsilə də Azərbaycan xalqına salamlarımı çatdırıram".

***Emil SALAMOĞLU, musavat.com***

# Bərzani əmin-amanlığı yaradır, Maliki tərəfdə isə hər gün ölümdür

## *Şimali İraqın təzadlı həyatından növbəti qeydlər*

Neft gəlirləri hesabına Şimali İraq kürdləri sürətlə varlanır. Ərəblər isə partlayışların, terrorun adiləşdiyi ölkənin cənub şəhərlərindən baş götürüb şimala qaçırlar. Onlar Şimali İraq şəhərlərində qara işlərdə ən aşağı əmək haqqına çalışırlar. Hətta aralarında gecələməyə yerləri olmadığı üçün açıq havada yatanlar var. Çünki aldıqları maaş hoteldə qalmağa yetərli olmur.

Son illər mərkəzi kürd muxtariyyətinin tabeliyində olan şəhərlərə kütləvi köç var. 2003-cü ilin əvvəlində Şimali İraqda əsgər, polis, müəllim 100-150 dollar maaş alırdı. Bu rəqəmlər son 5 ildə 750-1250 dollar arasında dəyişib. Duhok, Ərbil və Süleymaniyyə kimi böyük şəhərlər inkişafdadır. Ərbildə 2500 kvadrat metr ərazinin qiyməti 10 milyon dollardırsa, ətraf ərazilərdə belə torpaq sahəsi 500 min 3 milyon arası dəyişir. Xüsusilə villaların tikintisində xarici ölkələrdəki evlərin arxitektura quruluşundan nümunə götürülür.

İngilis, amerikan, fransız, alman, italyan kəndləri adı ilə tanınan bu massivlərdə hər villanın 300-500 min dollar qiyməti var. Ərbil məhəllələrindən keçərkən İsveç massivi və yaxud alman massivi yazılmış lövhələr qarşınıza çıxacaq. Bu massivlərdə həmin ölkələrin arxitekturasına uyğun villalar ucaldılıb. Hər birində 250-400 villanın olduğu, elektrik enerjisinin heç vaxt kəsilmədiyi bu müasir məhəllələrdə Şimali İraqın elitar təbəqəsi yaşayır. Bu bölgədə qızıl və almaz satışına ciddi maraq var. Rusiya, Hindistan və Çexiyadan bu ölkəyə almaz idxal olunur. Əsasən də toylarda gəlin və bəyə bu zinət əşyaları hədiyyə edilir.Kürdlər artıq "Rolls-Royce" kimi bahalı maşınlarda gəzir. Səddam Hüseyn dövründə "Brazil" deyilən rus istehsalı olan nəqliyyat vasitəsindən istifadə edən kürdlər indi bu maşınları bəyənmirlər. Artıq bu köhnə avtomobillərə rast da gəlməzsiniz. "Land Cruise", "Land Rower", "Mercedes", "BMW" kimi maşınlar kürdlərin sevimlisidir. "Rolls Royce" kimi dünyanın ən bahalı avtomobilləri də burada satışa çıxarılıb. Şəhərdə gecələr gənclər arasında bu maşını sürənlər qarşımıza çıxır. Bölgənin ən böyük ticarət mərkəzi olan Majidmoolun alt qatında sərgilənən "Rolls Royce" avtomobilləri şəhərin ən zəngin iş adamlarından biri tərəfindən gətirilib. Şimali İraq təzadlar məmləkətidir. Ölkənin yuxarıda təsvir etdiyimiz gülən üzüdürsə, ağlayan sifətini də diqqətinizə çatdırmalıyıq. Bağdad və Mosul başda olmaqla, cənub şəhərlərindən gələn minlərlə ərəb ailələrini dolandıra bilmək üçün kürdlərin nəzarətindəki bütün ağır işlərə baş vururlar. Gündə 10-15 min dinar (10 manat) müqabilində ərəblər tikintidə, tualet, təmizlik, süpürgəçilik və başqa işlərdə çalışırlar. Ərəblər danışırlar ki, yaşadıqları doğma şəhərlərdə artıq onların həyati təhlükəsizliyi sıfıra bərabərdir. 10 ildir ki, sabitlik bərqərar olunmur. Digər tərəfdən, dolanışıq da çətinləşib.











Ərəb Yusif Abdullanın dedikləri bizə tərcümə edilir: "Qarşıdurmalardan yorulmuşuq. Buna nə zaman son qoyulacaq bilmirik. Ölkəmizin gələcək taleyi qaranlıq görünür. Ailələrimiz aclıqla üzüzə qalıb. Ərbil, Süleymaniyyə kimi şəhərlərə köçüb burada işləyirik. Qazancımızın bir qismini hotellərə versək ailəmizə göndərəcək pul qalmayacaq. Parklarda, boş ərazilərdə gecələyirik..." Şimali İraqın Ərbil şəhərindəki Kayseri bazarı. Bir yanda işıldayan zərgər dükanları, digər tərəfdə ədviyyatçılar və s. Osmanlı dövründə bazarın indiki yerində karvansaraylar olduğu, alver üçün Ərbil qalasına gələn xaricilərin heyvan və yüklərini burada buraxdığı rəvayət edilir. Son zamanlar zərgər, geyim, texniki avadanlıq dükanlarının açılması belə bazarın tarixi xüsusiyyətini dəyişdirməyib. Tarixi boyunca hər dərdə dərman qurudulmuş bitkilərin, cürbəcür otların və yüzlərlə növ ədviyyatın satıldığı nəhəng bazarda ürəyin istədiyini tapa bilərsən. Kənd və dəri pendirləri, halva, doşab, qəhvə növləri, loxum, şəkərləmə, sosiska və paxlavaların piştaxtaya çıxarıldığı Kayseri bazarı bu ənənəvi xüsusiyyətini heç də asanlıqla itirmək istəmir.

33 ildir dərzilik edən Sahib kişi bazarın köhnəyə nisbətən çox dəyişdiyini söyləyir: "Dərziliyi ustadımdan öyrənməyə başlayanda 9 yaşım var idi. Bazarda dərzilər, qəssablar, tərəvəz satılardı. Hər şeyin özünə görə ayrı küçəsi vardı. Sonra dəyişdi".

Dərzi deyir ki, Kayseri bazarı Hələb və Şamdakı bazarlara bənzəyirdi. Çünki bazarın arxitekturasına Hələb və Şam üslubunda inşa olunub. Bazarın tarixinin ən az 200 illik olduğunu deyən Davud kişi ərbilli Əhməd Çələbinin atasının buranı suriyalı ustalara tikdirdiyini söyləyir: "Qəssab, Kəndirbaz, Dəmirçi kimi ləqəbləri olan biznesmenlər vardı. İndi heç biri yoxdu. Qədimdə karvanlar Çindən, Pakistandan və Əfqanıstandan bura mal gətirər, Mosul şəhəri üzərindən Şam, və Fransaya ixrac edirmişlər.

Ərbil əhlinin ən əsas qazancı ticarətdir. Ticarət olmasa, batarıq. Bərzani hökuməti neft pullarını ilə abadlıq işləri aparır, yeni şəhərlər salır, yollar düzəldir. Mərkəzi hökumətdən asılılıq azalıb. Ona görə ticarətçilərin üzərinə ağır vergilər qoymayıb".

***Emil SALAMOĞLU, musavat.com***

# Xocalı soyqırımı Kürdüstanın Ərbil şəhərində keçirilən konfranslarda qaldırılıb

## Tahir Süleyman: *“Ərbil türkmənləri Azərbaycandan fərqli olaraq, 50-dən artıq ölkənin, eləcə də Ermənistanın on illərdir İraqda səfirliyi və Ərbildə konsulluqları fəaliyyət göstərir”, görəsən bizim doğma Azərbaycanın səfirliyi niyə yoxdur deyə soruşurlar*

(Əvvəli səh. 1-də)

Kürdüstan bölgəsinin Səlahəddin universitetinin rektoru Əhməd Dzeyinin rəhbərliyi ilə “Osmanlı dönəmində Yaxın Şərq və Kürdüstanın siyasi durumu” mövzusunda 17 ölkənin iştirakı ilə



keçirilən konfransa Azərbaycandan beş nəfərlik nümayəndə heyəti də dəvət olunmuşdu.

“Diplomat” qəzetinin baş redaktoru Tahir Süleyman, özü ilə apardığı beş nəfər nümayəndə heyəti, Kürdüstan bölgəsindən Vətənə dönüblər. Bununla bağlı Moderator.az-a verdiyi açıqlamada Tahir Süleyman kürdlərlə yanaşı türkmənlərin də yaşadığı bölgələrdə də olduqlarını dedi. Səfərin məqsədi konfransda iştirak edərək, Azərbaycanımızın başına gətirilən faciələri dünya ictimaiyyətinə çatdırmaq olub.

İlkin olaraq türkmən Yazıçılar birliyinin sədri və “Yurd” dərgisinin baş yazarı, sabiq türkmən millət vəkili Əsəd Ərbil, Ərbil şəhərində Yazıçılar Birliyinin konfransında iştirak etmək üçün bizi dəvət etdi. Mövzu “Hələbçədə, Balisanda kürdlərin, türkmənlərin Səddam Hüseyn tərəfindən kimyəvi silahlarla soyqırıma məruz qalması” mövzusunda, yaxşı yazarlara təqdimat keçiriləcəkdi. Əsəd Ərbil başda olmaqla türkmən və kürd şair və yazıçıları bizi də dəvət etdilər və biz konfransa getdik. Yazıçılar Birliyinin konfransında, mən cəhd etdim ki, ermənilərin 1992-ci ildə Azərbaycanda yaşayan türklərə, kürdlərə qarşı törətdikləri faciələri, ələl xüsus Xocalı soyqırımı məsələsini gündəmə qoyun. Əvvəlcə onlar tərəddüd etdilər və dedilər ki, bu gündəlikdə yoxdur. Amma mən təkid etdim, Xocalı ilə bağlı apardığımız kitabları, şəkilləri göstərdik. Dedik ki, Səddam Hüseyn kimyəvi silahla insanları kütləvi şəkildə qırıb. Ermənilər isə qırmaqdan əlavə insanların gözlərini çıxardıblar, başlarının dərisini soyublar. Yəni bunlar daha dəhşətlidir. Xocalıda azəri türkləri ilə bərabər kürdlər də olub.

Yəni təkidlə məsələni gündəliyə saldırdım. XIX əsrdən ermənilərin Qarabağa gətirilməsi, 1915-ci illərdə erməni-türk müharibəsi dövründə camaatın Qərbi Azərbaycandan məcburi İrana mühacirət olunması, Sovet hökuməti dövründə qayıtması, 1937-ci ildə kürdlərin Orta Asiya və Qazaxıstana sürgün olunması, 1947-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya edilməsi, Dərələyəz, Zəngəzur mahallarının boşaldılması məsələlərini tarixi faktlarla gündəmə gətirdim. Xocalı məsələsinə geniş yer verərək orada olan hadisələri, əlimizdə olan məlumatları çatdırdım. Aprelin 16-da Səlahəddin Universitetində 17 dövlətdən gələn qonaqların iştirak etdiyi konfransda mən Xocalı məsələsini qaldırmaq istədim. Bu zaman konfrans rəhbərliyi qeyd etdi ki, bu tarixi bir mövzudur, siyasi mövzu deyil. Dedim o halda icazə verin xaricdən gələn jurnalistlərlə mətbuat konfransı keçirim. Biz Xocalı ilə bağlı əlimizdə olan 300-400-ə qədər şəkilləri, fakt olaraq çıxartdıq və xaricdən gələn jurnalistlərə təqdim edərək başa saldıq ki, belə bir hadisə baş verib. 50-dən artıq xarici jurnalistə 20 yanvar hadisələrini, Qarabağ hadisələrində partladılmış avtobusları, Bakı metrosundakı terror aktını əks etdirən şəkillər payladıq. Onlarda böyük maraq oyandı və dedilər ki, niyə Azərbaycan hökuməti və diasporası bu məlumatları bizlərə çatdırmır, bizimlə əlaqə saxlamır? Mən də onlardan xahiş etdim ki, siz də konferans rəhbərliyinə deyin, Xocalı soyqırımı məsələsini gündəliyə salarsa, biz konfrans iştirakçılarına Xocalı məsələsini şərh edərik. Xaricdən gələn jurnalistlərlə yerli jurnalistlər gedib konfrans rəhbərliyindən xahiş etdilər və bu məsələnin gündəliyə qoyulmasının razılığını aldıq.

